

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ *qapısı*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 140 (23.782)

5 avqust 2021-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramı uğurla icra olunur

***Kənd təsərrüfatının inkişaf etdirilməsi və bu sahədə mövcud problemlərin mütərəqqi həlli yollarının işlənib hazırlanması məqsədilə qəbul olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatını, əsasən, yerli istehsal hesabına ödənilməsini təmin etmişdir.***



Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhalinin tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır. Yeni və ənənəvi meyvə sortlarından ibarət bağların salınması davam etdirilir. Bu məqsədlə 2021-ci ilin ikinci rübündə muxtar respublikada, ümumilikdə, 48,9 hektar sahədə yeni meyvə bağları salınmış, 121302 ədəd müxtəlif növ ting, 8463 ədəd üzüm kolu əkin dövriyyəsinə daxil edilmişdir.



Təbii ki, yaşıllıq salmaq işin bir tərəfidirsə, onu böyütmək, ərsəyə gətirmək, qulluq göstərmək işin qalan tərəfidir. Görülən işlər içərisində vacib bir məqamı – yaşıllıqların becərilməsində mütərəqqi suvarma şəbəkəsinə üstünlük verilməsini də vurğulamaq lazımdır. Bu məqsədlə 2021-ci ilin ikinci rübündə 2,2 kilometr ana xətt, 22,92 kilometr müxtəlif diametrli borularla paylayıcı boru xətti çəkilmiş, 232 hidrant və üç istiqamətdə çıxışı olan dəmir-beton hovuzlar quraşdırılmış, 1,5 kilometr açıq drenaj qazılmış, 3,3 kilometr qapalı drenaj xətti çəkilmişdir.

Qeyd olunan proqramın icrası nəticəsində muxtar respublikada cari ilin ikinci rübü ərzində meyvəçiliyin inkişafına maliyyə dəstəyi davam etdirilmiş, Sahibkarlığın İnkişafı Fondu tərəfindən bağçılığın inkişafı məqsədilə 2 layihə üzrə 46 min manat, daxili tələbata uyğun yüksək məhsuldarlığa və intensiv üsullara əsaslanan tingçilik təsərrüfatlarının daha da inkişaf etdirilməsi məqsədilə bir layihəyə 5 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına dəstək verilməsi və yenilərinin yaradılması istiqamətində tədbirlər görülmüş, Sahibkarlığın İnkişafı Fondu tərəfindən meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına 3 layihə üzrə 66 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Hesabat dövründə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində 1 bağçılıq, Şərur rayonunda isə 1 tingçilik təsərrüfatının yaradılması, Babək rayonunda 1 üzümçülük təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılmış, Şərur və Ordubad rayonlarının hər birində 1 bağçılıq təsərrüfatının yaradılması davam etdirilmişdir.

Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 2021-ci ilin ikinci rübü ərzində ümumi sahəsi 5570 kvadratmetr olan 3 istixana təsərrüfatının yaradılması və sahəsi 552 kvadratmetr olan 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Hazırda muxtar respublikada ümumi sahəsi 151 min kvadratmetrə yaxın olan istixana komplekslərinin əhalinin tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir.

Meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılmasına da ciddi önəm verilmiş, ikinci rübdə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına Şərur rayonunda ümumi tutumu 170 ton olan 2 soyuducu anbarın yaradılması başa çatdırılmış, ümumi tutumu 800 ton olan soyuducu anbarın yaradılması üçün "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə 424 min 750 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmiş, Naxçıvan şəhəri və Şərur rayonunda ümumi tutumu 1730 ton olan 4 soyuducu anbarın yaradılması istiqamətində işlər davam etdirilmişdir. Ümumilikdə, muxtar respublika üzrə dövlət maliyyə dəstəyi və şəxsi vəsait hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 20 min 900 ton olan 48 soyuducu anbar istifadəyə verilmişdir.

Muxtar respublikanın aqrar siyasətində kənd təsərrüfatında becərilən meyvə bitkilərinin genofondunun toplanılması, sort müxtəlifliyinin qorunması, zənginləşdirilməsi, təbiqyönümlü sortların əkin sahələrinin genişləndirilməsi, istehsalının təşkili



və onlardan iqtisadi səmərə əldə edilməsi əsas strateji istiqamətlərdəndir. İkinci rübdə AMEA Naxçıvan Bölməsinin Nəbatat bağında müxtəlif meyvə sortlarından ibarət calaq işləri həyata keçirilmiş, 600-ə yaxın meyvə tingi calaq edilmişdir.

Müasir dövrdə sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün sahələrini əhatə etməklə, maddi rifahın və sahibkarlıq riskinin zəmanətçisi kimi çıxış edir. Meyvə bağlarının və tərəvəz əkini sahələrinin sığortalanması işinin davam etdirilməsi məqsədilə 2021-ci ilin ikinci rübü ərzində, ümumilikdə, 44 meyvə, 31 tərəvəz təsərrüfatı olmaqla, cəmi 75 meyvə bağı və tərəvəz əkini sahələrinin sığortalanması işi həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında bazara təqdim olunan bütün məhsulların keyfiyyəti daim nəzarətdə saxlanılır ki, bu istiqamətdə meyvə-tərəvəz və onlardan hazırlanmış məhsullar xüsusi yer tutur. İkinci rübdə "İstehlak Mallarının Ekspertizası" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasında meyvə-tərəvəz məhsullarından götürülən 43 nümunə laboratoriya analizlərinə cəlb edilmişdir. Bu dövrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər üzrə məhsulların 50 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılmışdır.

Muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracının davam etdirilməsi məqsədilə gömrük prosedurları qanunvericiliyə uyğun olaraq sadələşdirilmiş, malların sürətli keçidləri təmin olunmuşdur. Dövlət Gömrük Komitəsi tərəfindən kənd təsərrüfatı məhsullarının gömrük sərhədindən sürətli buraxılışının təmin edilməsi üçün ixracatçılara "Yaşıl dəhliz" buraxılış sistemlərindən daimi istifadə hüququ verilmişdir.

Yerli məhsullarımızın satışına və təbliğinə geniş imkanlar açan, süni qiymət artımına maneə yaradan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı yarmarkaları daxili bazarın inkişaf etdirilməsində əsas istiqamətlərdən biri kimi mühüm rol oynayır. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində kənd təsərrüfatı və sənaye məhsulları yarmarkası təşkil olunmuş və məhsulların bazar qiymətlərindən 10 faiz aşağı qiymətə satılmasına nəzarətin həyata keçirilməsi təmin edilmişdir.

*Bütün bunlar onu göstərir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı davamlı xarakter daşıyır və bu sahədə yaradılmış baza növbəti illərdə daha mühüm nailiyyətlərin qazanılmasına töhfə verəcək.*


**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı***


## Standartlara uyğunluq təmin edilir

İstehsal və xidmət sferasının bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu çərçivədə əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılması, keyfiyyətli yerli məhsulların istehsalının təşviqi Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər cari ilin iyul ayında da davam etdirilmiş, məhsulların keyfiyyət göstəricilərinin standartlara uyğunluğu diqqətdə saxlanılmışdır.

Cari ilin iyul ayında qida məhsullarının 83 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baytarlıq Xidmətinin və Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin nümayəndələri ilə birlikdə 2021-ci il 23 iyul tarixdə Culfa rayonunun Dəmirli yaylağında arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmiş, müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar çatdırılmışdır.



Hesabat dövründə emal olunmuş kənd təsərrüfatı məhsullarının 23, meyvə-tərəvəz məhsullarının 37 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış, nəticələrin standartlara uyğun olduğu müəyyən edilmişdir.

2021-ci il 8 iyul tarixdə Şərur rayonunun Məmmədsabir kəndində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, "Naxçıvan qovurması"nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı 32 ailə təsərrüfatına maarifləndirici bukletlər və "Naxçıvan qovurması" əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. İyul ayında 2 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartlara uyğunluğu müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın müvafiq bəndlərinin icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

Muxtar respublikada istehsal olunan alkoqollu içkilərin keyfiyyətinin diqqətdə saxlanılması üçün alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 3, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyən edilmişdir.

İstehlakçıların məhsullar haqqında dolğun məlumatlandırılması məqsədilə 2 müəssisədə istehsal olunan 6 məhsulun etiket layihəsi standartlara uyğun hazırlanmışdır.

Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə iyul ayında, ümumilikdə, 739 qaz cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 12 qaz cihazının idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.


***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

# Naxçıvan Dəmir Yolu iqtisadiyyatımızın gəlirli sahəsinə, maraqlı səyahət marşrutuna çevriləcək

***Son dövrlərdə Avroasiya məkanında gedən sürətli inteqrasiya prosesləri, xüsusən ötən ilin payızında müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsindən sonra bölgədə yaranmış əlverişli geosiyasi vəziyyət və qardaş Türkiyənin Naxçıvanla qonşu vilayətlərində yaradılan və genişləndirilməsi planlaşdırılan nəqliyyat-kommunikasiya şəbəkəsi Avropanın ən qərbindən Asiyanın ən şərq nöqtəsinədək fasiləsiz dəmir yolu xəttinin istifadəyə verilməsi ideyasını reallığa doğru gerçəkləşdirməkdədir. Tarixən Şərqin qapısında alınmaz qala kimi dayanmış qədim Naxçıvan da özünün inkişaf səviyyəsi və mühüm tranzit imkanları ilə, bu mənada, dünyanın iri strateji araşdırma mərkəzlərinin diqqətindədir.***



Nəqliyyat həmişə inkişafın əsas faktorlarından biri olub. Qədim İpək Yolu ticarəti dövründə dəvə karvanlarının keçdiyi yollar bu gün sürətli mexaniki vasitələrlə keçilsə də, tarixi inkişafın bütün mərhələlərində simvolik olaraq bu yollara yenidən qayıdışlar həmişə olub. Bu gün də müasir dünya pilotsuz uçan aparatların döyüş möcüzəsindən danışarkən, bir zamanlar tacirlərin ən etibarlı güzərgahı olmuş marşrutların yenidən dirçəldilməsi məsələləri artıq gündəmin ilk onluğuna möhkəmcə oturub. Şərq-Qərb dəhlizində hamı üçün faydalı olacaq yeni kommunikasiya xətlərinin istifadəyə verilməsi bu baxımdan nəzərləri 30 ilə yaxındır ki, bağlı qalmış Naxçıvan Dəmir Yolu hissəsinə çevirib. Çünki bu yol əvvəlki kimi yenə alternativsiz, yenə ən təhlükəsiz olub, etibarlı əllərdədir.





Yaşlı və orta nəslin insanları yaxşı xatırlasalar da, bu yolun əhəmiyyətinə nəzər salmaq üçün 30-40 il əvvələ qısa ekskurs edək. Doğrudur, Naxçıvan Dəmir Yolunun, necə deyərlər, Nikolayı taxtda görmüş qədər yaşı vardır. Belə ki, 1903-cü ildə çar Rusiyası hər yerdə olduğu kimi, öz nüfuzunu artırmaq məqsədilə cənub sərhədlərində, Araz çayı boyunca da bu xəttin çəkilişinə qərar verib və Uluxanlı-Culfa dəmir yolu xətti çəkilib. O dövrdə yolun Naxçıvan-Culfa hissəsinin olduqca mürəkkəb relyef formasına baxmayaraq, çox inadla və keyfiyyətlə işlənilməsi diqqət çəkib ki, indi də o zaman qurulmuş yol və körpülərdən hələ də istifadə olunması bunu sübut edir. Başqa sözlə, bu yol o zaman bölgənin iqtisadiyyatının inkişafından çox imperiyanın nüfuzu məqsədini güdürdü. Ozamankı dəmir yollarında hərəkət edən ikioxlu kiçik vaqonların yükünə hesablanmış bu yolda artıq dörd və daha çox oxlu vaqonların da hərəkəti mümkündür. Yolun sonrakı dövrlərdə istismarı və buradakı yük gərginliyi onu göstərdi ki, doğrudan da, Araz çayı boyunca çəkilmiş bu yolun bütün Cənubi-Qafqazın iqtisadi-mədəni həyatında mühüm rolu vardır.

1941-ci ildə Naxçıvan Dəmir Yolunun ən əhəmiyyətli hissəsi olan Culfa-Mincivan yol sahəsi istifadəyə verilib. Zamanlama baxımından diqqət etsək, görərik ki, bu tarix İkinci Dünya müharibəsinin başlanmasına təsadüf edir. Belə ki, həmin hissənin çəkilişi hələ o dövrdə, 20-30-cu illərdə planlansa da, artıq müharibə başlanan kimi SSRİ hökuməti arxa cəbhənin möhkəmləndirilməsi və İranla nəqliyyat əlaqələrinin genişləndirilməsi üçün bunu çox sürətlə həyata keçirdi. Sonrakı dövrlərdə yolun buraxılış imkanları nəzərə alınaraq Naxçıvandan Mincivana, oradan da Bakıya qədər olan hissə daha çox yükdaşımalarda istifadə olunurdu. Təkcə bir faktı demək kifayətdir ki, sovet dövründə Naxçıvan Dəmir Yolu ilə daşınan yüklərin 80-85 faizi məhz nankor ermənilərə ünvanlanırdı. Hətta Zəngəzur bölgəsi üçün gətirilən yüklərin Naxçıvan stansiyasında boşaldılaraq daha sonra yük maşınları ilə daşındığını da bilirik. Hərəkətin həcmi isə nə az, nə çox, 80-ci illərin inkişaf dövründə hər gün 30-40 yük və sərnişin vaqonundan ibarət olmaqla, 25 cüt qatara qədər çıxırdı. Toplamda hər il 22-25 milyon ton brutto yük, gün ərzində isə minlərlə sərnişin daşınırdı. O zamanlar Moskva-Tehran marşrutu üzrə hərəkət edən sərnişinlər də Naxçıvan Dəmir Yolundan istifadə edirdilər.

Naxçıvan Dəmir Yolunun bir nəqliyyat təsərrüfatı kimi inkişafı 1976-cı ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ozamankı yolun mərkəzi aparatının İmişlidən Naxçıvana köçürülməsi ilə başlayıb. Bundan sonra bütün yol təsərrüfatı Naxçıvandan idarə olunmağa, buradan planlanmağa başlanıldı. Onu da qeyd edək ki, hətta 2000-ci illərin əvvəllərinə kimi Azərbaycan Dəmir Yolunun Lənkəran-Astara hissəsi də Naxçıvana tabe olunmuşdu. Lakin ötən əsrin 90-cı illərində Naxçıvan Dəmir Yolu Hissəsi də böhranla üz-üzə qalmışdı. Ermənilərin artan iştahası, sönmək bilməyən torpaq iddiaları, son nəticədə, dəmir yolundakı hərəkətə də son nöqtəni qoydu. 1992-ci il aprel ayının 23-də axırıncı qatar Bakıdan Naxçıvana hərəkət edə bildi. Bundan sonrakı dövr Naxçıvan Muxtar Respublikasının çətin nəqliyyat blokadası dövrü idi.

Lakin Naxçıvan yaşayırdı və gələcəyə olan inam burada dəmir yolunu da yaşatdı, onu dağılmaqdan xilas etdi. Bu gün Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə dağıdılmış, sözün məcazi mənasında, erməni zombiləri tərəfindən “əti yeyilib sümüyü qalmış” dəmir yolunun fotolarına, sosial şəbəkələrdəki şəkillərinə baxdıqda adamın lap əti ürpəşir. Bütün dövrü ərzində tamamən Azərbaycanın mülkiyyətində olmuş bu yolun depo, stansiya, tunel, körpü, elektrik təchizatı, rabitə, anbar kimi digər çox sayda dəmir yolu infrastrukturu obyektlərinin ermənilər tərəfindən necə dağıdılıb, metal qırıntısı kimi “xuruş” edildiyini görməkdəyik. Hələ yol bağlananda Mehri və Mincivan zonasında qalmış teplovoz, vaqon və müxtəlif təyinatlı avtomobilləri demirəm. Hər halda, həmişə yardım və ianələrlə yaşamış ermənilərdən yaradılanları qoruyub saxlamağı, nə zamansa, bəlkə, elə özlərinə də lazım olar deyə, bu yolu dağıtmamağı gözləmək də sadəlövlük olardı. Nəticə isə göz qabağındadır. Naxçıvan Dəmir Yolunun Ermənistan ərazisindəki və 28 il işğalda qalmış hissəsi də acgöz erməni xislətindən öz nəsibini aldı. Təbii ki, bu gün artıq erməni təcavüzünün digər sahələrə vurduğu zərərlər kimi Azərbaycan Dəmir Yoluna da vurulmuş zərərlər dəqiqliklə müəyyənləşdirilib, təzminat faktı kimi məğlub ölkə qarşısında iddia ediləcək.

Dəmir yolu təsərrüfatı çox mürəkkəb olub canlı orqanizm kimidir. Yenə də köhnə dəmiryolçuların dili ilə desək, o zamanlar dəmir yolu ağır dartı qurğularından tutmuş özünün uşaq bağçaları, məktəbi, xəstəxanası, mağazalarınadək bütün zəruri olan sahələri özünə birləşdirən bütöv bir sistem idi. Ümumilikdə, o zaman Azərbaycan Dəmir Yolunun Naxçıvan Hissəsində 4-5 min nəfərin işlədiyi qeyd olunur. Başqa sözlə, dəmir yolu ozamankı insanların iqtisadi və sosial həyatının bir parçası idi.

Ancaq Naxçıvanın blokadaya alınmasından kifayət qədər vaxt keçsə də, muxtar respublika ərazisindəki dəmir yolu xətləri və bütün yol infrastrukturu tamamilə işlək vəziyyətdə saxlanılıb, bir sıra yenilənmə işləri də aparılıb. Belə ki, ötən dövr ərzində Naxçıvan ərazisində bütün dəmir yolu stansiyaları və inzibati binalar yenilənib. Daxili imkanlar hesabına yol təsərrüfatı qorunub saxlanılıb, nəzarət artırılıb, yük və sərnişin qatarlarının hərəkət sürəti tənzimlənib. Hazırda istismar olunan sərnişin qatarlarındakı komfort şərait isə köhnə sərnişinlərin təsəvvürlərindən tam uzaq olub, ən müasir tələblərə cavab verir. İndi çox sərfəli qiymətlərlə Şərurdan Ordubada və geriyə hərəkət edən sərnişinlər isitmə sistemli, kondisionerli vaqonlarda oturub, WiFi-dan istifadə edib, tər-təmiz yol kənarından Araza doğru uzanan mənzərəni seyr edə bilirlər. Bu sərnişinlərin sayı isə hər ay orta hesabla 10-12 min nəfərə çatır. Daşınan yüklər isə, əsasən, daxili tələbatın ödənilməsi üçün yerli tikinti materiallarından ibarətdir.

Bəli, yaranmış yeni situasiya artıq bölgədə daha geniş quruculuq və iqtisadi əlaqələr üçün yeni kommunikasiya xətlərinin açılışını zəruri edir. Bu il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvana növbəti səfəri zamanı Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə tanış olarkən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən quruculuq işlərinin dəmir yolu sistemini də əhatə etdiyini, sərnişin vağzalı binaları, inzibati və texniki binaların yenidən qurulduğunu, müasir dəmir yolu infrastrukturu, hərtərəfli iş və xidmət şəraiti yaradıldığını yüksək qiymətləndirib. Buradakı müsahibəsində ölkə Prezidenti qədim torpağımız olan Qərbi Zəngəzurla Naxçıvanı və qardaş Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin əhəmiyyətini bir daha qeyd edərək deyib: ***“Naxçıvan dəmir yolu fəaliyyət göstərir, indi həm sərnişin, həm yük daşımaları həyata keçirilir. Yəni Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmir yolu tikiləndən sonra bütün infrastruktur yaradılacaqdır”.***

Bu yol haradasa Naxçıvanın əsl Şərqin qapısı olduğunu eşidib bilməyənlər üçün yaddaqalan, sərfəli bir səyahət marşrutu da olacaq və Naxçıvanın çox qiymətli ixrac məhsulları üçün dünya bazarlarına çıxış asanlaşacaq.

**✍ Əli CABBAROV**

## Taxıl tədarükü mövsümü uğurla başa çatıb

### *Sahələrdən 103 min 372 ton məhsul götürülüb*



Daha bir təsərrüfat ilinin ən qayğılı dövrünü yaşayırıq. Muxtar respublikanın aqrar sahə ilə məşğul olan sahibkarları, ailə təsərrüfatları, torpaq mülkiyyətçiləri erkən yazdan indiyə qədərki dövrün uğurla keçdiyini bildirirlər. Bunu dükan-bazarlarımızdakı, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarındakı bolluq da təsdiq edir. Təbii ki, təsərrüfat ilinin başa çatmasına hələ çox var və sahələrdən məhsul tədarük olunmaqdadır. Ancaq ilin ilk və ən qiymətli məhsulunun toplanılması uğurla başa çatdırılıb. Yüksək nəticəyə nail olunub. Bu isə o deməkdir ki, süfrələrimizin şahı, ən müqəddəs nemət olan çörək üçün çəkilən zəhmət hədər getməyib.

Məlumat üçün bildirək ki, ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 32721 hektar sahədə taxıl əkilmişdi. Mövsüm boyu əkin sahələrinə göstərilən aqrotexniki qulluq öz bəhrələrini verib. Əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri, torpaq mülkiyyətçiləri, mexanizatorlar arasında aparılan maarifləndirici tədbirlər yeni nəticəyə nail olunmasında başlıca rol oynayıb. Belə ki, sahələrdən hektarın orta məhsuldarlığı 31,6 sentner təşkil etməklə 103 min 372 ton yüksəkkeyfiyyətli taxıl götürülüb.

Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda hər il taxılçılıqda yüksək məhsuldarlığa nail olunur. Bu il də bölgə taxılçılarının zəhməti hədər getməyib. Rayon taxıl tədarükündə birinci yerə sahib çıxıb. Belə ki, 3866 hektar sahədən məhsuldarlıq 40,5 sentner olmaqla, 15655 ton taxıl tədarük edilib.

İkinci yerlə kifayətlənən Sədərək torpaqları taxılçılıq üçün çox münbitdir. Bunu nəzərə alaraq rayonda taxıl sahələri ildən-ilə genişləndirilir. Cari ildə 2283 hektar sahə taxılçıların zəhmətini yerə vurmayıb: Sərhəd bölgəsində 8407 ton məhsul yığılıb, məhsuldarlıq 36,8 sentner olub.

Uzun illərin təcrübəsi Babək rayonunda da özünü göstərib. Qeyd edək ki, hər təsərrüfat ilini uğurla başa vuran rayonun taxılçıları 2021-ci ilin məhsulu üçün muxtar respublika üzrə əkin sahəsinin həcminə görə ilk yerdə olmaqla, yəni 10823 hektar taxıl zəmisindən 33440 ton məhsul əldə ediblər. Bu isə orta məhsuldarlığın 30,9 sentner olması deməkdir.

5998 hektar sahədə taxıl əkini keçirən Kəngərli rayonunun torpaq mülkiyyətçiləri sahələrdən 18205 ton məhsul tədarük etməklə mövsümü başa vurub, 30,4 sentner məhsuldarlığa nail olublar.

Digər yerlərdə Culfa, Ordubad rayonları, Naxçıvan şəhəri və Şahbuz rayonu qərarlaşıb. Qazanılan uğurların təməlində duran başlıca amil isə, təbii ki, dinamik xarakter alan dövlət qayğısıdır. Belə ki, muxtar respublikaya müasir kənd təsərrüfatı texnikalarının gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, taxılçıların yüksək reproduksiyalı toxum və gübrələrlə təchiz edilməsi xüsusi vurğulanmalıdır. O da qeyd olunmalıdır ki, istehsal edilmiş taxılın uzun müddətə saxlanılması üçün yeni anbarların inşa edilməsi, əvvəllər inşa olunmuş anbarların həcminin genişləndirilməsi, məhsulun üyüdülməsi üçün un dəyirmanlarının tikilməsi və mövcud dəyirmanların yenidən qurulması, çörəkbişirmə sexlərinin sayının artması, həmçinin bu sahə ilə məşğul olanlara kreditlərin verilməsi taxılçılıqda əldə edilən nailiyyətlərə stimul olub. İstehsal edilən məhsulların münasib qiymətlə satışının təşkili də bu sıradadır.

Belə uğurlar taxılçılığa marağı artırmaqla bu sahə ilə məşğul olanların ailə büdcəsinə xeyli gəlir gətirib. Ona görə də onlar gələn ilin məhsulu üçün payızlıq taxıl əkinlərinə hazırlıq işləri görürlər.

**✍ Muxtar MƏMMƏDOV**

## Operativ vergi nəzarəti tədbirləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən iyul ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 3 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Həmin vergiödəyicilərinin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və barələrində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***



*Naxçıvan Dövlət Universitetində beynəlxalq əlaqələrin genişləndirilməsi, dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələri ilə səmərəli əməkdaşlığın təşkili, qlobal elm və təhsil məkanına inteqrasiya sahəsində aparılan məqsədyönlü işlər öz müsbət bəhrələrini verməkdədir. Universitetin beynəlxalq əlaqələrinin yüksələn xətlə inkişafını ilbail artan xarici tələbə sayının dinamikasından açıq-aydın görmək olur. Belə ki, xarici tələbələrin sayına görə Azərbaycan ali təhsil müəssisələri sırasında öncüllüyünü qoruyan universitetdə 10 ölkədən 1000-ə yaxın əcnəbi tələbə təhsil alır. Muxtar respublikada həyata keçirilən məqsədyönlü və ardıcıl dövlət siyasəti, aparılan uğurlu təhsil strategiyası da məhz əcnəbi tələbələrin artım dinamikasına müsbət mənada öz təsirini göstərir.*

## Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetləri arasında beynəlxalq əməkdaşlıq gücləndirilir

Müasir dövrdə qloballaşan dünyada milli-mədəni, tarixi və etnik köklərin birliyi ilə bir-birinə bağlı olan Azərbaycan Respublikası və Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq və bərabərlik nümayiş etdirirlər. Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində Türkiyə Respublikasının özünəməxsus yeri vardır. Belə ki, dünyanın 130-dan çox ölkəsi ilə beynəlxalq əməkdaşlığa malik olan universitetin Türkiyənin 80-dək ali təhsil ocağı ilə qarşılıqlı əlaqələri mövcuddur.

Hər sahədə əməkdaşlıq üçün imkanlar açan dil, din birliyi, ortaq ənənələr və xalqlar arasındakı qardaşlıq münasibətləri türkiyəli tələbələrin məhz Naxçıvanın bu ali təhsil ocağını seçməsi üçün xüsusi imkanlar yaradır. Xarici ölkəyə təhsil üçün üz tutan hər tələbəni düşündürən məqamların həllini məhz Naxçıvanda görən əcnəbi tələbələr arzuladıqları humanitar-mədəni mühiti muxtar respublikamızda tapa bilir. Diyarımızda mövcud olan sabitlik, tərəqqi və yüksək sosial-iqtisadi inkişaf bizim regionu seçən hər xarici tələbənin ürəyindən xəbər verir.

Türkiyə universitetləri ilə Naxçıvan Dövlət Universiteti arasında əlaqələrin daha da genişləndirilməsi məqsədilə iyul ayının 8-dən 16-dək müxtəlif görüşlər keçirilib, qarşılıqlı müqavilələr imzalanıb.

Müzakirələrdə ikili diplom layihələri, texnopark sahəsində əməkdaşlıq məsələləri, elmi-tədqiqat sahəsində birgə elmi araşdırmaların aparılması, məqalə və elektron dərgilərin yeni tədqiqat üsulları ilə birgə yayımının əhəmiyyəti, xarici dillərin tədrisində müasir üsullardan səmərəli istifadə yolları öz əksini tapıb. İlk olaraq Türkiyə Ali Təhsil Şurasının sədr əvəzi, professor Rahmi El ilə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev arasında görüş keçirilib. Söhbət zamanı Türkiyə ilə Azərbaycan dostluğunun bütün sahələrdə olduğu kimi təhsil sahəsinə müsbət mənada təsirindən danışılıb, təhsil sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyəti müzakirə edilib. Daha sonra Ali Təhsil Şurasının Komissiya sədri, professor Sezer Komsuoğlu, Ali Təhsil Şurasının Türk Respublikaları üzrə İdarə Heyətinin məsul üzvü, professor Mehmet Şişmanla görüşlər olub.

Naxçıvan Dövlət Universiteti üçün uğurlu bir başlanğıcın əsasını qoyan, Çankırı Karatekin Universiteti ilə İqtisadiyyat ixtisası üzrə ikili diplom layihəsinin icrasına başlanılıb. Hər iki ali təhsil ocağı üçün gələcəkdə perspektiv imkanlar açacaq ikili diplom layihəsi imzalanaraq öz təsdiqini tapıb. Növbəti akademik ildən başlayaraq 5 il müddətində etibarlı olacaq protokolda Kimya mühəndisliyi ixtisası sahəsində ikili






diplom layihəsinin həyata keçirilməsi, hər iki dövlət üçün mühüm əhəmiyyətə malik olan "Duzdağ" konqresinin keçirilməsi, endemik bitkilərdən alternativ tibbi dərman preparatlarının alınması, biologiya sahəsində akademik araşdırmaların aparılması məsələləri öz əksini tapıb. Artıq layihənin şərtlərinə görə ortaq proqram üçün universitetlər, ilk növbədə, təhsil almağa göndəriləcək tələbə sayını müəyyənləşdirib, eyni zamanda ortaq proqram çərçivəsində təqaüd alacaq tələbə kontingentinin müəyyənləşməsi üçün tələb olunan şərtlər dəqiqləşdirilib və qiymətləndirmə sistemi uyğunlaşdırılıb.

Hacı Bayram Vəli Universiteti ilə keçirilən görüşdə isə birgə layihələr üzərində işləmək, tələbə və müəllimlərin akademik mobilliyi çərçivəsində mübadilə proqramlarının həyata keçirilməsi müzakirə edilib. Görüş çərçivəsində yaxın gələcəkdə "Distant Təhsil Mərkəzi" ilə birgə fəaliyyət, Turizm, İncəsənət ixtisasları üzrə ikili diplom proqramının həyata keçirilməsi, rəqəmsal təhsildə keyfiyyətin təmini üçün elektron öyrənmə sisteminin gücləndirilməsi, doktorantura təhsil pilləsində keyfiyyətin artırılması və xarici təcrübələrdən faydalanmaq məqsədilə iki elmi rəhbərli ixtisaslara qəbul planının aparılması nəzərdə tutulub.

Xarici əlaqələr sahəsində zəngin təcrübəsi olan Ankara Universiteti ilə də əlaqələri gücləndirmək məqsədilə razılaşdırılmış müqavilələrdə, akademik və elmi mövzulardakı fəaliyyətlər üzrə qarşılıqlı təcrübələrdən faydalanmaq, elmi məqsədlər üçün professor-müəllim mübadiləsi, tədris və tədqiqat məqsədilə hər növdən kitab, elmi nəşrlər və oxşar materialların qarşılıqlı mübadiləsi, birgə tədqiqat layihələri və elmi yığıncaqların keçirilməsi öz əksini tapıb. Hər sahədə əməkdaşlıq üçün perspektiv imkanlara malik olan Ankara Universitetində tibb ixtisasları üzrə birgə elmi-tədqiqat aparılması, həm bakalavr, həm də rezidentura təhsil pillələri üzrə təcrübələrin bu universitetdə keçirilməsi məsələləri müzakirə edilib. Bakalavr sonrası təhsil pillələrində ikili diplom proqramlarının həyata keçirilməsi, qida mühəndisliyi sahəsində əməkdaşlıq imkanlarının





müəyyənləşdirilməsi və birgə fəaliyyətin təmin edilməsi, magistratura üzrə İnformasiya texnologiyaları ixtisasında təhsil alan tələbələrin Ankara Universitetində qurulmuş "Big Data" Tədqiqat Mərkəzində praktik təcrübə keçmə imkanının yaradılması gələcək əməkdaşlıq fəaliyyətində öz əksini tapıb. Görüşdə beynəlxalq jurnallara çıxışın təmin olunmasında və elmi məqalələrin yazılması sahəsində təlimlərin təşkil edilməsi, beynəlxalq universitet reytinqlərinə çıxışın təmini üçün Ankara Universitetinin təcrübələrindən faydalanmaq məsələlərinə aydınlıq gətirilib.

Naxçıvan Dövlət Universitetində yaradılan ingilis dilində İqtisadiyyat ixtisasının uğurlu nəticəsini nəzərə alaraq ali təhsil ocağında ingilis dilində yeni yaradılacaq Tibb ixtisası üçün də ikili diplom proqramının təşkil edilməsi müzakirə olunan məsələlər sırasında yer alıb.

İncəsənət ixtisasları sahəsində xüsusi peşə təcrübəsinə malik olan Naxçıvan Dövlət Universitetinin təcrübəsinin Ankara Universiteti ilə paylaşılması da gələcək əməkdaşlığın prioritet hədəfləri kimi qeyd olunub.

Qazi Universitetində keçirilən görüşdə isə müxtəlif profilli ixtisaslar üzrə doktorant və dissertant mobilliyi, doktorantura sahəsi üzrə tədqiqat məqsədilə qarşılıqlı mübadilənin təşkili məsələləri müzakirə edilib. Fransız və İngilis dili ixtisasları üzrə təcrübə mübadiləsi məqsədilə Qazi Universitetində xarici dil tədris edən müəllimlərin Naxçıvandakı bəhs etdiyimiz ali təhsil ocağında tədrisə yönləndirilməsi, sinxron tərcümə sahəsində təcrübənin öyrənilməsi, tibb sahəsində birgə təlim, tədris və tədqiqatın həyata keçirilməsi, Mühəndislik ixtisasları üzrə ikili diplom proqramları, Texnologiya ixtisası sahələri əsasında təcrübələrin paylaşılması, biotexnologiyalar sahəsində əməkdaşlıq, universitet kitabxanaları arasında mübadilələrin təşkil edilməsi və bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Araşdırma universiteti statusu alan, 330 elmi araşdırma şirkəti, 111 inkubator və 8000 şirkət üzrə 1500-dən çox ixtisaslı tədqiqatçı və proqramçı ilə fəaliyyət göstərən Yıldız Texnik Universiteti ilə keçirilən görüş zamanı elmi-tədqiqat sahəsində birgə elmi araşdırmaların, yeni məqalə və elektron dərgilərin birgə yayımının hər iki universitet üçün əhəmiyyəti qeyd edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il 14 dekabr tarixli "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncamına əsasən iyunun 16-da təməlatma mərasimi keçirilən texnoparkın fəaliyyətində qardaş ölkənin təcrübəsindən istifadə haqqında müzakirələr aparılıb, bu sahədə xüsusi təcrübəyə malik olan Yıldız Texnoparkının Silikon Vadisindəki mərkəzinin imkanlarından faydalanmaq məsələləri müzakirə edilib. Rezident şirkətlərlə tələbələrin birgə startap layihələrinin təqdim edilməsi üçün Texnoparkda hər cür imkanın yaradılmasının nəzərdə tutulduğu vurğulanıb.

Beynəlxalq əməkdaşlıqda Naxçıvan Dövlət Universitetində bu ilin tədris bazasında yeni yaradılacaq Beynəlxalq ticarət və logistika ixtisası üzrə professor-müəllim heyətinin Yıldız Texnik Universitetində təcrübələrdə iştirakı, Biotexnologiyalar və Nanotexnologiyalar üzrə birgə əməkdaşlıq, Kompüter mühəndisliyi, Energetika ixtisasları üzrə ikili diplom layihəsi məsələləri öz əksini tapıb. Birgə elmi araşdırmaların aparılması, yeni məqalə və elektron dərgilərin birgə yayımının həyata keçirilməsi, magistr təhsil səviyyəsi üzrə Memarlıq ixtisaslarında birgə tədrisin təşkili və ikili diplom proqramının həyata keçirilməsi, ingilis dilinin tədrisində birgə iş aparılması, bu dil üzrə tərcümə ixtisaslarında universitet əməkdaşlarımızın beynəlxalq təcrübəyə yiyələnməsi üçün professor-müəllim mübadiləsinin həyata keçirilməsi məsələləri əməkdaşlığın mühüm hədəfləri kimi qeyd olunub.

Türkiyənin qabaqcıl ali təhsil ocaqlarından olan İstanbul Texnik Universitetinə səfər zamanı Texnopark sahəsində birgə fəaliyyət, Elektrik və elektronika mühəndisliyi ixtisası üzrə birgə tədrisin təşkili, Konservatoriya ixtisasları, doktorantura və magistratura təhsil pilləsi üzrə ikili diplom layihəsi, kitabxanalardan birgə istifadə məsələləri müzakirə edilib.

Qardaş ölkənin ən nüfuzlu və çağdaş təhsilin qabaqcıl universitetlərindən olan Orta Doğu Texnik Universiteti ilə keçirilən əməkdaşlıq görüşlərində ikili diplom layihələrinin icrası sahəsində razılıq əldə edilib. Görüş zamanı Naxçıvan Dövlət Universiteti Texnoparkında rezident olaraq yerli və xarici şirkətlərin ofislərinin yerləşəcəyini, bu sahədə qabaqcıl dünya təcrübəsinin öyrənildiyini və bu baxımdan ODTU Texnoparkının imkanlarından istifadə üçün görüşün əhəmiyyəti vurğulanıb.

*Qeyd edək ki, modernləşmə yolunda inamla addımlayan Naxçıvan Dövlət Universitetinin qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi yaxın gələcəkdə universitetin beynəlxalq imicinin güclənməsinə və xarici əlaqələrin yüksələn xətlə inkişafına təkan verəcək. Bütün bunlardan qazanan isə muxtar respublikamızın elm və təhsili olacaq.*

**Səadət ƏLİYEVA**

## Gənc istedadlara göstərilən dövlət qayğısı

Muxtar respublikamızın uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə etməsinə zəmin yaradır. Bu tərəqqinin geniş vüsət almasında gənclərin də rolu böyükdür. Həyata keçirilən bu siyasət gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, dünyagörüşlərinin, fiziki və mənəvi sağlamlıqlarının möhkəmləndirilməsi, bir sözlə, hərtərəfli inkişafı üzərində qurulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Müxtəlif sahələrdə fərqlənən istedadlı gənclərin qabiliyyətlərinin qiymətləndirilməsi, onların fəxri adlarla, qiymətli hədiyyələrlə mükafatlandırılması muxtar respublika gənclərinin öz üzərlərində daha səylə çalışmalarına güclü təkan verir. Belə gənclərimizdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamına əsasən adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na təhsil sahəsi üzrə salınan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin X sinif şagirdi Nicat Əlizadədir. Bu xəbər onun müəllim və valideynlərinin böyük sevincinə səbəb olub.



Riyaziyyat müəllimi Mahizər Orucovanın şagirdi haqqında söylədikləri:

– Muxtar respublikamızda istedadlı yeniyetmə və gənclərin aşkara çıxarılmasına diqqət yetirilir və bu istiqamətdə dövlət səviyyəsində tədbirlər həyata keçirilir. Məktəbimizdə də öz elmi, təhsili, təlim-tərbiyəsi ilə seçilən belə şagirdlərimiz çoxdur. Onlardan biri də Nicatdır. O, kiçik yaşlarından öz bilik və bacarığı ilə yaşıdlarından fərqlənirdi. IX sinfi fərqlənmə attestatı ilə bitirib. İndiyədək müxtəlif nailiyyətlər əldə edib. Belə ki, o, 2019-cu ildə Amerika Riyaziyyatçılar Assosiasiyası tərəfindən təşkil olunan Beynəlxalq riyaziyyat olimpiadasında II, həmin il muxtar respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə III yerin qalibi olmuş, 2019-2020-ci tədris ilində isə respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə "Qızıl" medala layiq görülmüşdür. Eyni zamanda Amerika Riyaziyyatçılar Assosiasiyasının Fəxri fərmanı ilə təltif edilmişdir.

Nicatla söhbət zamanı bildirdi ki, ətrafımdakı insanların təhsilə olan sevgisi məni də məktəbə ilk qədəm qoyduğum gündən yaxşı oxumağa, biliklərə yiyələnməyə sövq edib. Çünki görmüşəm ki, təhsilli olmaq hər zaman, hər yerdə böyük nailiyyətlər əldə etməyə kömək edir. Ali Məclis Sədrinin Sərəncamını eşidəndə sevincimin həddi-hüdudu yox idi. Bu gün yaşadığım sevinci sözlə ifadə etmək çox çətindir. Mənə və mənim kimi yüzlərlə şagirdə göstərilən qayğıya görə muxtar respublika rəhbərinə öz minnətdarlığımı bildirirəm. Həmişə çalışacağam ki, mənə göstərilən etimadı doğruldum.

Biz də belə gənclərimizlə fəxr edir və inanırıq ki, istər təhsil sahəsində həyata keçirilən işlər, istərsə də gənclərin fiziki-mənəvi sağlamlığının möhkəmləndirilməsi istiqamətində atılan mühüm addımlar bu ölkənin, muxtar respublikamızın adını daha da yüksəldəcək bir nəsil yetişdirir. İnanırıq ki, yüksək istedada, bilik və qabiliyyətə, həmçinin əxlaqi dəyərlərə malik gənclərimiz hərtərəfli dövlət qayğısı qarşılığında gələcəkdə Vətənimizin çiçəklənməsi naminə öz bilik və bacarıqlarını əsirgəməyəcək, doğma diyarımızı hər yerdə ləyaqətlə təmsil edəcək, yeni-yeni uğurlar qazanacaqlar.

**Aytac CƏFƏRLİ**

*Əfsanəyə dönən ömürlər*

# Vətən sevgisi – Şəhidlik zirvəsi



Beşyaşlı bir oğul, atasının doya-doya qucaqlaya bilmədiyi, əlindən tutub məktəbə aparmaq arzusunda olduğu, gələcəyi üçün, kim bilir, necə xəyallar qurduğu, adını Uğur qoyub, "sən mənim uğurumsan" dediyi, kiçik yaşda birdən-birə böyüyən Uğur qarşılayır məni yaşadıqları binanın qarşısında. Yol göstərir, evimiz bu tərəfdədir, balaca olduğuma baxma ki, mən də atam kimi komandirəm, – deyir. İnanmırsan, gedək evə, anama deyim sənə şəkilləri də göstərsin. Atamın əsgərləri artıq mənim əsgərlərimdi, evimizə gəlmişdilər, mənə raport verdilər.

Uğurla söhbət edə-edə evə çatır, Sədərək rayonunun Dəmirçi kəndinin igidi Məmmədhəsən Sadiqlinin şəkilləri ilə bəzənən otağa daxil oluruq. Şəhidin anası Səadət xanımın həsrət dolu gözlərinə baxıram, o gözlərdə nələr var...

Bir oğulun yox, min oğulun həsrəti var bu ananın gözlərində. Hamısı eynidir, şəhid analarının baxışları. Əbədi həsrət çökən baxışlar. Onlar təkcə öz övladının deyil, hər bir şəhidin qəmini çəkir çünki.

Səadət ana deyir ki, od düşdüyü yeri yandırar, amma bu elə bir oddur ki, bütöv Azərbaycan analarının ürəyinə düşdü. Hamımızın qüruru da, kədəri də oldu oğullarımız. Onlar başımızı uca etdi öz əməlləri ilə. İllər əvvəl Qarabağda öldürülən, hər cür təhqirə məruz qalan qadınların, dünyaya göz açmağa macal tapmadan ana bətnində öldürülən körpələrin, diri-diri yandırılan oğulların qisasını aldılar. İllərdir, tapdaq altında inləyən torpağa öz qanları ilə can verdilər. Məmmədhəsənim çox sevirdi hərb sənətini. O, istəyinə çatdı. Hər iki istəyinə, həm hərbçi oldu, həm də qəhrəman. Əminəm ki, oğlumun ruhu şaddır, çünki onun uğrunda döyüşdüyü torpaqlar azad oldu. O torpaqlar ki biz şəhid anaları həmin torpaqlar azaddır deyə ovunuruq. Hansı ki o torpaq illərdir, həsrət çəkirdi.

"Dünyada hər şeydən əl çəkmək olar, bircə torpaqdan savayı. Biz naxçıvanlılar üçün torpağın bir qarışı tonlarla qızıldan qiymətlidir. Bunu dəfələrlə sübut etmişik. Əsrlər öncə Əlincədə, illər öncə Sədərəkdə", – deyir Meydan ata. Vaxtı ilə qapımızda bir qarın çörək üçün fəhləlik edən ermənilər sovetlər dağılanda bu torpaqlara yiyə durmaq eşqinə düşdülər. Amma onlar bizim həmin döyüşlərdə kim olduğumuzu yaxşı dərk etdilər. Səngərdə ov tüfəngi ilə yüzlərlə müasir silahlarla təmin olunmuş düşmənə qalib gəldik. Bunu xalqımızın birliyi və həmin illərdə burada – yurdunda naxçıvanlılarla birgə yaşayıb çıraq işığında, soyuq otaqda usanmadan, yorulmadan əzmlə xalqına xidmət edən ulu öndərimizin sayəsində etdik. Atalardan oğullara ərməğan olan sıx birliyi, dövlətə, Vətənə sədaqəti bir daha sübut edib İkinci Vətən müharibəsində qalib gəldik. Məmmədhəsən kimi yüzlərlə igid öz canını Vətənə fəda etdi. Onlar tarixin axarını dəyişdirdi. Yeni bir qəhrəmanlıq səhifəsi açdılar. Belə oğullarla ancaq qürur duyuruq. Düşmən sevinməsin ki, oğullarımızı şəhid etdi. Biz bir ölüb, min dirilirik!

Şəhidin bacısı Şərmin Sadiqli qardaşının qəhrəmanlıqları haqqında danışır:

– Məmmədhəsən evimizin ilkidir. O bizim hər ikimizə, qardaşıma da, mənə də dost idi. Həmişə bizi qoruyardı. Məktəbdə təhsil aldığı müddət ərzində yunan-Roma güləş növü ilə məşğul olub və bir çox yarışlarda qalib gəlib. 2007-ci ildə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə, 2010-cu ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2015-ci ildə TTM-in zabit ixtisas kursunu bitirib sonra leytenant kimi Culfa şəhərinə təyinat alıb. Üç il Culfa şəhərində xidmət etdikdən sonra, ona 2017-ci ildə baş leytenant rütbəsi verilib, xidməti ərzində Günnüt döyüşlərində öndə gedənlərdən biri olub. Günnütdə böyük şücaətlər göstərdiyi üçün 2018-ci ildə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunub. Sonrakı təyinatı isə Vayxır olub. Buradakı xidməti ərzində – 2018-ci ildə Türkiyədə Komando təməl kursunu Azərbaycan üzrə birinciliklə bitirib, 2019-cu ildə Əlahiddə Ümumqoşun Ordu üzrə "Ən yaxşı kəşfiyyat (XT) bölüyü" yarışında yüksək nailiyyətlər əldə etdiyinə görə Fəxri fərman ilə təltif edilib.

Şərmin onu da bildirir ki, 2020-ci il sentyabrın 27-də başlamış Vətən müharibəsində iştirak etmək üçün 25 oktyabrda yola düşüb. Döyüş yoldaşları deyir ki, qızğın döyüşlərin getdiyi bir vaxtda əsgərlərdən biri düşmənin snayper atəşi ilə yaralandı, həmin an əsgəri xilas etmək çətin olsa da, Məmmədhəsən onu yaralı halda qoymaq istəmədi. Özünü düşünmədən əsgəri xilas etdi. Düşmənin snayper atəşi nəticəsində yaralanmasına baxmayaraq, döyüşə özü öz intiqamını aldı. Məmmədhəsən döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Döyüş yoldaşı Ceyhun Əliyev deyir ki, onunla 2015-ci ildən son ana kimi bir yerdə olmuşuq. Məmmədhəsən komandirdən çox qardaş idi hamımıza. Sözümüz-sirrimiz bir idi. Elə Vətən müharibəsində də birlikdə getmişdik. Təcrübəli və cəld bir zabit idi. Vətən müharibəsinə gülə-gülə getdik. Düşmənin üzərinə qorxmadan, çəkinmədən, illərdir, içimizdə olan qisas hissi ilə atıldıq. Şuşa uğrunda gedən döyüşlərdə bir qarış torpaq azad etdikcə sevincimizi bölüşür, şəhadətə yüksələn yoldaşlarımızın qisasını torpaqlarımızı azad edə-edə alırdıq. Bilirdik ki, bayrağımız azad torpağımızda dalğalandıqca onların ruhu şad olur.

Şəhidin həyat yoldaşı Şərabanunun gözlərinə çökən kədəri bircə Uğurun şıltaqlığı silir:

– Ömür yolu qısa olsa da, şərəflidir, ibrətamizdir Məmmədhəsənin. Hərbçi yoldaşı olmaq nə qədər qürurludursa, şəhid yoldaşı adını daşımaq da bir o qədər şərəflidir. Bundan sonrakı həyatımı Məmmədhəsənin qəhrəmanlıqlarını yaşatmağa, Uğurumu atasının adına layiq böyütməyə həsr edəcəyəm. Şəhidlər öz canlarını övladlarına gözəl bir gələcək vermək üçün fəda etdilər. Dedilər ki, qoy oğullarımız bütöv bir Vətənin övladı olaraq yaşasınlar. Və bacardılar da. Bircə təsəllim budur ki, hədər yerə özünü qurban vermədi. Torpaqlarımız azad oldu, artıq məğlub yox, qalib bir xalqın övladı kimi böyüyəcək balalarımız.

Qəhrəmanın ocağından ayrılanda şəhidin evin divarlarından boylanan rəsmlərinə – gənc üzünə, gülən gözlərinə baxdıqca dərin bir kədər bürüsə də məni, tezliklə bu kədər qürurla əvəz olunur və deyirəm ki, şəhidim, dünyanın ən uca məqamında uyuyan qardaşımız, ruhun şad olsun, sizin qisasınız alındı, düşmən diz çökdü, öz qanında boğuldu. Artıq azaddır yurdumuz, Şuşamızda bu il xarıbülbül Azərbaycan əsgəri üçün açdı, Ağdamın ağ günləri yenidən özünə qayıtdı, Kəlbəcərin dərdi bitdi, Xocalının qisası alındı.

**✍ Ramiyyə ƏKBƏROVA**

## İmtahanlar keçirilib



*Avqustun 4-də Dövlət İmtahan Mərkəzi tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi) ikinci cəhdi və hərbi liseylərə qəbul imtahanı keçirilib.*

İmtahanların təşkili üçün, ümumilikdə, 13 imtahan binası, 208 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 13 ümumi imtahan rəhbəri, 37 imtahan rəhbəri, 269 nəzarətçi-müəllim, 26 buraxılış rejimi əməkdaşı cəlb olunub.

Naxçıvan Muxtar Respublikasında rezidenturaya qəbul imtahanın birinci mərhələsinin ikinci cəhdi Naxçıvan şəhəri 14 nömrəli tam orta məktəbdə 3 zalda təşkil edilib. İmtahan saat 10[00]-da başlayıb və 2 saat 30 dəqiqə davam edib. İkinci mərhələyə imtahanın birinci mərhələsində topladığı bal 40-dan az olmayan, müsabiqəyə isə imtahanda topladığı balı baza fənləri üzrə 40-dan, ixtisas fənləri üzrə 50-dən az olmayan namizədlər buraxılırlar.

Həmin gün Naxçıvan şəhər 5 və 14 nömrəli tam orta məktəblərinin binalarında Heydər Əliyev adına Hərbi Liseyə qəbul imtahanı təşkil edilib. 451 nəfərin iştirak etdiyi imtahanın keçirilməsi üçün 6 rəhbər, 36 zal, 46 nəzarətçi ayrılıb. 2 saat davam edən imtahanda abituriyentlərə 4 fənn üzrə ( Azərbaycan dili, riyaziyyat, fizika, kimya) 80 test tapşırığı təqdim olunub.

Naxçıvan şəhərindəki hər iki imtahan yüksək səviyyədə keçirilib.

Qeyd edək ki, rezidenturaya qəbul imtahanının birinci mərhələsinin nəticələrinin yaxın 2 gün, hərbi liseylərə qəbul imtahanının nəticələrinin yaxın 1 həftə ərzində elan olunması nəzərdə tutulur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*Etnoqrafiya tariximizdən*

# Xalq təqvimində "qora bişirən ay"

*Lap qədim zamanlardan üzü bəri ömrünü torpağa bağlayan əcdadlarımız müxtəlif təbiət hadisələrini müşayiət edərək xalq təqvimi yaratmışlar. Qeyd etmək yerinə düşər ki, tarixən Azərbaycanda müxtəlif təqvimlərdən istifadə olunub. Lakin heç bir təqvim ilin fəsillərini, aylarını, günlərini xalq təqvimində olduğu kimi, dəqiq və düzgün ifadə edə bilməyib. Xüsusən baş verə biləcək təbiət hadisələrinin insanların uzunmüddətli müşahidələri əsasında daha düzgün izah edilməsi xalq təqviminin yaddaşlarda qorunmasına səbəb olub. Rəsmi təqvimdən belə daha dəqiq olan bu təqvim ata-babalarımıza ilin fəsillərinin gətirdiyi hadisələri – küləyi, yağışı, istini, dolunu qabaqcadan müşayiət etməyə imkan verniş, bu yolla onlar təsərrüfatlarına zərər vuracaq hansısa təbiət problemlərini qabaqcadan dəyərləndirmiş, məişət və təsərrüfat işlərini, necə deyərlər, etibarlı tutmuşlar.*

Əcdadlarımız ilin müxtəlif dövrlərini təqvimlərə ayırarkən bitkilərin inkişaf dövrünü də əsas götürmüşlər. Bu mənada, iyul ayının ortalarından avqust ayının sonuna kimi olan böyüklərimizdən tez-tez eşitdiyimiz "qora bişirən ay" daxil olur. Bəs nə üçün bu aya məhz "qora bişirən ay" adı verilib? Suala cavab verməzdən əvvəl yay aylarının xalq təqvimində yerinə nəzər yetirək.

Etnoqraf Asəf Orucovun, Zaleh Novruzovun etnoqrafiyamızla bağlı tədqiqatlarında göstərilir ki, iyunun 22-də başlayan yay fəsli xalq təqvimində hissələrə bölünüb, yayın şiddətli istisinə, eləcə də yaşadıqları ərazidə əkinçilikdə olan fərqə görə dövrlərə müxtəlif adlar qoyulub. Məsələn, Azərbaycanın bəzi üzüm becərilən zonalarında iyul ayı "qora bişirən ay", Abşeronda isə "əncir bişən ay" adı ilə adlandırılıb. Təbii ki, bu adlar bölgələrə xas olan meyvələrin adı ilə bağlıdır. Birinci



mərhələ iyunun 22-dən başlayıb 45 gün davam edir. Xalq arasında bu dövr "yayın cırcırama dövrü" adlanır. Belə ki, havaların son dərəcə istiləşməsi ilə əlaqədar olaraq aran yerlərində cırcıramalar səsləşməyə başlayır. Təcrübədə müəyyən edilib ki, bu dövrdə yerə nə qədər yağış düşsə belə, ot, əkin, taxıl göyərməz. Havanın istiliyindən yerə düşən yağış nəticəsində yaranan rütubət az vaxtda buxara çevrilib quruyar. Belə olduğu halda nə əkilən əkin, nə də başqa göy-göyərti torpaqdan boy verib cücərə bilməz.

Yayın ikinci dövrü isə xalq təqvimimizə əcdadlarımız tərəfindən "quyruq doğdu" adı ilə daxil edilib. Bir çox etnoqrafik materiallara və mütəxəssislərin düşüncələrinə görə, bu ayla bağlı ziddiyyətli fikirlər var. Bəzi mənbələrdə bu aya xalq arasında "quyruq doğdu" yox, "quyruq dondu" deyirlər. Lakin xalq təqviminin bölgüsünə nəzər yetirsək və havanın şəraitini göz önünə gətirsək, bu iki yanaşmanı həll etmək bir qədər asan olar.

"Quyruq doğan" dövr xalq təqvimində "qora bişirən ay"ın içərisindədir (15 iyul - 15 avqust). Bununla yanaşı, quyruq doğduqdan sonra sərt istilər qismən azalır, havanın rütubəti bir qədər artır, otların üzərinə şeh düşür. Bu təbii hadisələrin baş verməsi ilə ata-babalarımız "qora bişirən ay"ın yavaş-yavaş yekunlaşdığını və yerini "quyruq doğan ay"a verdiyi qənaətinə gəlirdilər.

Xalqımızın uzunmüddətli müşahidəsinə görə, quyruq doğduqdan sonra yaylaqda dəvələr üzü arana tərəf yatır. Bununla da artıq maldarlar havaların soyuduğunu, arana köçməyin vaxtı gəlib çatdığını deyirlər. Digər bir fikirdə isə deyilir ki, yaylaqda kəsilən heyvanın quyruğu əridildikdən sonra donur. Bununla da sözügedən "quyruq dondu ay"ı başlayır. Lakin etnoqraf Asəf Orucovun, mərhum Zaleh Novruzovun da tədqiqatlarında qeyd olunduğu kimi, yaylaqda əridilmiş quyruq yağının donması vaxtını "quyruq dondu" ifadəsi ilə eyniləşdirmək yanlışdır. Çünki müxtəlif illərdə iqlimdə eyni vaxtda istiliyin fərqli olması, yaylaqların dəniz səviyyəsindən hündürlüyü dəqiq vaxt təyin etməyə imkan vermir. "Quyruq doğdu" isə konkret astronomik vaxtdır ki, hər il, eyni zamanda baş verir. Alimlər araşdırmalar nəticəsində göstəriblər ki, "quyruq doğdu" ifadəsi buğa bürcündəki ulduz topası ilə bağlı olaraq yaranmışdır.

Xalq təqviminə əsasən yayın ən məhsuldar dövrü sayılan "qora dəyən ay" və ya "qora bişirən ay" öz adını meyvəçilik, bağçılıq-bostançılıqla məşğul olan əcdadlarımızın uzunmüddətli müşahidələrindən sonra qazanıb. Belə ki, nənə-babalarımız ilin bu vədəsində üzüm tənəklərində işləyərkən yetişmiş üzüm giləlırinin sulandığını, nisbətən yumşaldığını və tamının dəyişib şirinləşdiyini müşahidə edərək bu aya "qora dəyən ay", ayın sonlarına yaxın havanın şiddətli istisi səbəbindən üzüm gilələrinin (qoraların) bişdiyini, salxım üzərində istidən qovrulduğunu görərək bu aya "qora bişirən ay" adını veriblər.

Mövzumuzla bağlı ailəmizin ən uzunömürlü sakini, ömrünün 90-cı yayını yaşayan Sonabəyim nənəmlə həmsöhbət oldum. Nənəm ömrünün yarısından çoxunu kolxozda işləyib. O deyir ki, ata-babalarımızdan görüb-götürdüyümüz, hər sirrinə bələd olduğumuz yerli təqvim insanları heç vaxt yanıltmayıb. Onun vasitəsilə bizlər uzun illər torpağın nə vaxt şumlanacağını, yağıntılı dövrün nə vaxt başlayacağını, əkinin nə vaxt biçiləcəyini təyin etmişik. İlin bu vədəsinə də hamının bildiyi kimi "qora bişirən ay" deyirlər. Bu ayın xüsusiyyətlərinə, sirlərinə yaxşı bələdəm. Elə ki ilin bu dövrü başladı, kənd camaatı təsərrüfat işlərinə daha çox vaxt ayırar. Xüsusilə heyvandarlıqla məşğul olan insanlar heyvanların qışa yem tədarükünə daha çox diqqət yetirirlər. Qız-gəlinlər isə bağ-bağatlarımızın yetirib-bitirdiyi meyvə-tərəvəzlərdən kompot, mürəbbə, turşu hazırlayıb qışa hazırlıq görürlər.

*Bəli, əziz oxucularımız, göründüyü kimi, ulu əcdadlarımız müasir elmin sirləri ilə səsləşən müşahidələri ilə hələ neçə min il bundan əvvəl təbiətin sirlərinə söykənərək bu gün də insanlar arasında istifadə olunan xalq təqvimini yaratmış və onu sistemləşdirməklə baş verəcək təbiət hadisələri ilə qabaqcadan xəbərdar olmuşlar. Bütün bu sadaladıqlarımızı göz önünə gətirsək, qədim türk xalqının köklü bir etnos kimi lap qədim zamanlardan üzü bəri təbiət elmlərinə dərindən bələd olduğunu qürurla deyə bilərik.*

**✍ Məcid RƏŞADƏTOĞLU**

### *İtmişdir*

Şərur rayonu, Çərçiboğan kənd sakini Hüseynova Məhəbbət Zal qızının adına verilmiş JN-383[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 624